Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# “Əkil-Bəkil”in nağıllı dünyası

**Qəşəm İsabəylinin anadan olmasının 70 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Könül Səmədzadə**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**“Əkil-Bəkil”in nağıllı dünyası:** Qəşəm İsabəylinin 70 illik yubileyi ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed.K.Səmədzadə; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018. – 35 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

## Tərtibçidən

Yazdım "Əkil-Bəkil"i,
Çap etdim, oxuyasan.
Bir az da sözlərimin
Qoxusunu duyasan.

*Qəşəm İsabəyli*

Müxtəlif həyat hadisələrinə, ətraf aləmə böyük maraq göstərən, hər şeyin mahiyyətinə varmağa çalışan, bugünkü uşaq, əqli intellektual qabiliyyəti ilə 40-50 il bundan əvvəlki yaşıdlarından xeyli fərqlənir. Orta ümumtəhsil məktəblərinin ilk pillələrindən başlayaraq uşaqlara həyat, ətraf aləm, özündən böyüklərin işi-peşəsi haqqında məlumat vermək, onlarda müəyyən anlayışlar formalaşdırmaq, mənəvi hisslərini, milli-vətənpərvərlik tərbiyəsini qüvvətləndirmək indi dövrün ən başlıca məsələlərindəndir. Lakin etiraf edək ki, həmin problem xarakterli məsələlərin, qarşıda duran vəzifələrin həllini təkcə ümumtəhsil məktəblərinin, digər təlim-tərbiyə ocaqlarının üzərinə atmaq bu günün tələbləri ilə həmahəng səslənmir. Bu da məlumdur ki, hər bir məktəbin, ailənin, hər bir uşağın yeni, maraqlı kitaba, musiqi və təsviri incəsənət əsərlərinə böyük ehtiyacı var. Belə müasir əsərlər öz növbəsində balalarımızın ümumtərbiyə prosesini zənginləşdirir, estetik-emosional əsaslarda qurulmasına zəmin yaradır.

Müasir dövrün indiki mərhələsində xalqımıza kamil, şüurca yetkin insanlar daha çox lazımdır. Belə insanların yetişməsində uşaq ədəbiyyatının misilsiz əhəmiyyəti vardır. Məhz elə buna görə uşaq ədəbiyyatının ideya-bədii səviyyəsinin yüksəldilməsinə həmişə qayğı göstərilmişdir.

Uşaq ədəbiyyatı böyüməkdə olan nəslin tərbiyəsində böyük əhəmiyyətə malikdir. Balacaları vətənpərvərlik, humanizm, düşmənə nifrət, beynəlmiləlçilik ruhunda tərbiyə etmək üçün yüksək səviyyəli uşaq əsərlərinin yazılmasına həmişə böyük

ehtiyac olub. Və bu baxımdan da uşaqlar üçün yazılan əsərlərdə müasir dövrün nəbzi tutulmalı, coşqun və qaynar həyatımız öz bədii inikasını tapmalıdır. Bu uşaq yazıçılarını düşündürən ən aktual problemlərdən biridir. Uşaqlar üçün yazılan əsərlərin yalnız formasına yox, həm də məzmun və ideya saflığına fikir vermək lazımdır.

Uşaq ədəbiyyatı ümumi bədii ədəbiyyatın ayrılmaz tərkib hissəsi olub, 3 yaşından 15-16 yaşa qədər olan uşaqların həyatını bədii və obrazlı şəkildə işıqlandırır. Ayrı-ayrı yaş mərhələlərinə mənsub olan uşaqların özlərinə məxsus xarakter xüsusiyyətləri vardır. Buna görə də uşaqlar üçün yazıb-yaradan sənətkarlar oxucuların bu xüsusiyyətlərini nəzərə almalıdırlar. Yaş xüsusiyyəti balacaların bilik səviyyələri, iradəsi, diqqəti, hafizəsi, yaddaşı, fizionomiyası ilə ölçülür. Uşaqların bədii zövqünün dərəcəsi, əməyə münasibəti, vətənpərvərlik, humanist duyğularının inkişafı da buraya daxildir.

Uşaq psixologiyasına dərindən bələd olan şairlərdən biridə Qəşəm İsabəylidir. Q.İsabəyli Azərbaycan uşaq ədəbiyyatında bədii sözün qüdrətinə dəyər verən, uşaq psixologiyasının ciddi, həm də dərin müşahidəçisi kimi çox maraqlı əsərlər yazan və bütün bunların mayasını həyat gerçəkliklərindən əxz edən qələm sahibidir. Yazıçı bu sahədə araya-ərsəyə gətirdiyi poeziya və nəsr nümunələri ilə yetmişinci illərdən üzü bəri yol gəlir. O, uzun zaman yaradıcı imkanlarını əsasən uşaq ədəbiyyatının inkişafına həsr etmişdir. Uşaq aləminə dərindən bələd olan, o aləmin ab-havasına çox ustalıqla daxil olan yazıçının əsərləri bu mənada hər zaman diqqəti cəlb etmiş, hətta onlardan mükafata layiq görüləni də olmuşdur.

Azərbaycanın görkəmli uşaq yazıçısı Qəşəm İsabəylinin anadan olmasının 70 illiyi münasibətilə yazılan bu vəsait "Giriş" və "Keçiriləcək tədbirlər" adlanan hissələrdən ibarətdir. I hissədə şairin həyat və yaradıcılığından, II hissədə isə yaradıcılığı ilə bağlı tədbirlərdən söhbət açılır.

## Giriş

Qəşəm İsabəyli 1948-ci ildə Kürdəmirin Xəlsə kəndində dünyaya göz açıb, bu kənddə böyüyüb, orta məktəbi bitirib, ADU-nun coğrafiya fakültəsinin məzunu olub. 1972-ci ildə universiteti bitirdikdən sonra üç il doğma Axtaçı və Beyi kənd məktəblərində müəllim kimi fəaliyyət göstərmişdir. Uzun-uzadı yollar keçəndən sonra Qəşəm İsabəyli C. Cabbarlı adına "Azərbaycanfilm"də və "Yazıçı" nəşriyyatında redaktor, "İşıq" nəşriyyatında redaksiya müdiri, "Şur" nəşriyyatında direktor vəzifələrində çalışıb. Hazırda "Şirvannəşr"in təsisçisi və direktorudur. 1967-ci ildən dövri mətbuatda çıxış edən Qəşəm İsabəylinin ilk kitabı son dərəcə bədii, özünəməxsus "Balaca bap-balaca", "Şam nağılı", "Əkil-bəkil", "Nənəm təkdi", "Ü-ü-ü", "Bir qarıyla bir qoca", "Bir qəlbin məhəbbət etirafları" və "Samur at minir" adlı son kitabları 2006-cı ildə nəşr olunub. 1989-cu ildə Q.İsabəylinin "Əkil-bəkil" kitabı Yazıçılar İttifaqı, Dövlətnəşrkom və Azərbaycan komsomolunun "İlin ən yaxşı kitabı" mükafatına layiq görülüb. Görkəmli şair və yazıçılarla yaxın təmas yaradan Q.İsabəyli ömrünün yarıdan çoxunu uşaq ədəbiyyatına həsr etmiş, xüsusilə 80-90-cı illərdə onun yaradıcılığı ədəbi ictimaiyyətin diqqətini daha çox cəlb edə bilmişdir. Şairin şeirləri rus, ingilis, ukrayna, belorus, qırğız və s. dillərdə çap olunub.

Q.İsabəylinin "Balaca, bap-balaca", "Nənəm təkdi", "Əkil-bəkil", "Ay külək, nə əsirsən" adlı şeir kitablarını vərəqlədikcə Vətən torpağının şoran çölləri, palçığı dizə çıxan, az-az insan ayağı dəyən narahat yolları göz önündə canlanır.

Pafoslu ibarələrdən uzaq olan, real həyat gerçəkliyini qələmə almağı daha çox sevən şair uşaqlara bu yerləri də sevməyi təbliğ edir. Bu yerlərin zəhmətkeş, hər əziyyətə dözümlü, əli qabarlı, gözü-könlü tox, həqiqət və ədalət arzusu ilə yaşayan ağsaqqal və ağbirçəklərinin həyat tərzini qələmə alan müəllif zamanın gərdişini yazıya köçürür:

Nənəm təkdi Xəlsədə,
Üçcə göz otaqda tək.
Qapısında təndiri,
Süfrəsində düz-çörək.

Q. İsabəylinin uşaqlar üçün yazdığı şeirlərin axıcı ahəngi, körpə ruhuna uyğun sadəliyi və təbiiliyi sadə deyim tərzi onun üstün cəhətlərindəndir.

Qəşəm İsabəylinin ilk qələm nümunələrinin yaranması 1980-cı illərin əvvəllərinə təsadüf edir. Yaradıcılığa əsasən şeirlə başlayan Qəşəm İsabəylinin ilk şeiri "Balaca, bap-balaca" şeiri, dilinin sadəliyi, səmimiliyi, ifadələrinin aydınlığı ilə seçilir. Sanki şair balaca, bap-balaca olan uşaqların dünyasından söz açacağını bildirir və demək istəyir ki, uşaq ədəbiyyatı balaca olsa da, çox böyük həqiqətləri ifadə edir. Siz onun balacalığına baxmayın. Zahid Xəlil demişkən, kiçik qığılcımla böyük tonqallar yandırmaq olar. Balaca şamla böyük otaqları işıqlandırmaq olar, balaca açarla böyük qapıları açmaq olar.

Tarixə bir nəzər salaq. Professor Zahid Xəlilin ifadəsi ilə desək, "Azərbaycan uşaq poeziyası sənət dünyasına at belində gəldi". Elə ilk təşəkkül dövründə şedevrlər yaratdı. M.Ə.Sabirin "Cütçü", "Yaz günləri", "Uşaq və buz", A.Şaiqin "Tülkü həccə gedir", "Tıq-tıq xanım", A.Səhhətin "İt və kölgəsi", "Yaz səhəri", "Vətən", R.B.Əfəndiyevin "Durna", M.Müşfiqin "Şəngülüm, Şüngülüm, Məngülüm", S.Vurğunun "Ayın əfsanəsi", R.Rzanın "Şəkil və Çəkil", Ə.Cəmilin "Can nənə, bir nağıl de" kimi əsərləri yəqin ki, hələ çox nəsillərin ədəbi tərbiyəsi ilə məşğul olacaqdır. Lakin bu gözəl nümunələr ümumi ədəbiyyatımızın kontekstində dəryada damlalara bənzəyir. Bütövlükdə uşaq ədəbiyyatımız çətin döyüşlərdə, zamanın sınaqlarında çox əsərlərini itirmişdir.

## Keçiriləcək tədbirlər

Q. İsabəyli xüsusilə 90-cı illər Azərbaycan uşaq ədəbiyyatının ilk inkişafına təkan verən qələm sahiblərindən biridir. Yaradıcılıq yollarında heç vaxt arxayınlaşmayan, öz şirin üslubu, rəvan dili ilə uşaqların mənəvi dünyasını fəth edən Q. İsabəylinin bu il 70 yaşı tamam olur. Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndəsi Qəşəm İsabəylinin yubileyi ilə bağlı bir çox silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Tədbirlərin keçirilməsində məqsədimiz bir çox uşaq yazıçı və şairləri ilə yanaşı, həmişə balacaları gözəl şeir və həm də maraqlı nəsr əsərləri ilə sevindirən Qəşəm İsabəylinin zəngin ədəbi irsinin oxucular arasında daha da sevilməsinə xidmət etməkdən ibarətdir. Respublikamızın bir çox təhsil ocaqlarında, məktəblərdə, kitabxanalarda və bir sıra mədəniyyət ocaqlarında silsilə tədbirlərin keçirilməsinə start verilmişdir. Həmçinin F.Köçərli adına Resbublika Uşaq Kitabxanasında da Qəşəm İsabəyli yaradıcılığının geniş təbliği üçün bir sıra tədbirlər planı hazırlanmışdır. Tədbirlər planına kitab sərgisini, şeir müsabiqəsini, viktorinanı, kitab müzakirəsini, ədəbi-bədii gecəni və s. müxtəlif tədbirləri salmaq olar. İlk olaraq kitabxanada yazıçının kitablarından ibarət sərgi təşkil olunur. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: *"Q.İsabəyli – 70", "Uşaqların sevimli yazıçısı", "Uşaqların yaxın dostu", "Q.İsabəyli Azərbaycanın görkəmli müasir uşaq yazıçılarından biri kimi"* və s.

# Kitab sərgisi




























SEHRLİ TÜTƏK


УУУ...


Гашам Исабәјли
Өмрүн хәлсә чағлары


Leyləyin intiqamı
Qəşəm İsabəyli


Musiqisi
Oqtay Rəcəbovun
Sözləri
Qəşəm İsabəylinin
ÇÖRƏK HAQQINDA NƏĞMƏLƏR


Qəşəm İsabəyli
Nənəm təkdi...


Qəşəm İsabəyli
CİN


Qəşəm İsabəyli
«Aclıq» dərsi

## Görkəmli şəxsiyyətlər Qəşəm İsabəyli haqqında

Təcrübəli şair, yazıçı da təcrübəli əkinçi kimidir. Axtarışı mütləq bəhrə verir. Qəşəm İsabəyli belə şair və yazıçılardandır.

**Məmməd İsmayıl,**
*şair*

"Nənəm təkdi" poeması olduqca orijinal üslubda qələmə alınmışdır.

**Zahid Xəlil,**
*professor, şair*

Q. İsabəylinin nəsr təhkiyə üslubu şeir dili kimi poetik və nağıl məziyyətlidir.

***

Q. İsabəylinin "Ü ü ü..." povestinin adı kimi, özü də uşaq nəsri üçün tapıntıdır.

***

İstedad özü öz yerini tapır.

**Ələviyyə Babayeva,**
*nasir, tərcüməçi, yazıçı*

Mən "Nənəm təkdi" kitabını son illərdə yaradılmış ən gözəl əsərlərindən biri, bəlkədə elə birincisi hesab edirəm. Bu gözəl əsərləri böyük Şəhriyarın "Heydərbabaya salam" əsəri səviyyəsində görürəm.

**Məmməd Namaz,**
*şair*

Uşaq psixologiyasına dərindən bələd olan, onların nəbzini tutmağa çalışan, həyatda görüb duyduqlarını ustalıqla, kövrəkliklə qələmə alan gənc şairlər sırasında Qəşəm İsabəylinin adını ümidlə çəkmək olar.

**Qədir Aslanov,**
*publisist*

Qəşəm İsabəyli dağda doğulsaydı, işgüzarlıqda onu bal arısına oxşadardım. Ancaq o, aran balası olduğu üçün onun zəhmətkeşliyi yayda səhərdən-axşamacan qış ruzusunu toplayan, "yoruldum" deməyən qarışqa çalışqanlığına bənzədilə bilər.

**Əjdər Ol,**
*şair, publisist, tərcüməçi*

Q. İsabəylinin "Əkil-Bəkil" poeması bütövlükdə kiçikyaşlı məktəblilərin bədii marağını dinamik şəkildə inkişaf etdirən, onların vətənpərvərlik tərbiyəsinə qüvvətli təsir göstərən dəyərli əsərdir. Xoşbəxt gələcəyimiz olan balalarımız üçün bu qəbildən yazılan əsərlərə geniş yer verilməsi ümumtərbiyənin, estetik mədəniyyətin yüksəldilməsi işinə ancaq fayda verər.

**Vidadi Xəlilov,**
*professor*

Uşaq əsərlərində vacib detallardan biri yumordu. Qəşəm müəllimin şeirlərində, hekayə və nağıllarında yumor hissi güclüdür. Onun dialoqları da təbii, axıcı olduğundan, bir-biri ilə zəncirvari bağlılıq yaradır. Sanki iki adamın sadə, aydın, lakonik söhbətini dinləyirsən.

**Şəfəq Nasir**
*filologiya üzrə fəlsəfə doktoru*

Kitabxanada Q.İsabəylinin yubileyi ilə əlaqədar müxtəlif tədbirlər keçirilə bilər. Belə tədbirlərdən biri də şairin kitablarının təhlilidir. Tədbirdə Q.İsabəylinin uşaqlar üçün yazdığı və uşaqlar arasında ən çox sevilən "Əkil-Bəkil" adlı kitabının təhlilini keçirmək olar. Kitabxanaçı kitab haqqında tədbirə gələn qonaqlara qısa məlumat verir. Daha sonra söz tədbir iştirakçılarına verilir.

**I iştirakçı:** "İşıq" nəşriyyatı tərəfindən 1990-cı ildə nəşr olunan bu əsər Q.İsabəylinin ən iri həcmli əsərlərindən biridir. Poemanın baş qəhrəmanı Bəkilin 13 yaşı var. Əkil sərhədyanı kəndlərin birində yaşayır. Məlumdur ki, sərhəd zonasında yaşayan hər kəsdən xüsusi sayıqlıq və diqqət tələb olunur. Onlar sərhədçilərin ən yaxşı köməkçiləri olmalıdır. Balaca Bəkildə bu xüsusiyyətlərin hamısı var. O, şəhərli şagird dostlarına başına gəlmiş maraqlı əhvalatları şirin, yumoristik bir dillə nəql edir. Uşaqları sərhəd zastavasına necə aparmağından, onlara bir dəfə dövlət sərhəddini pozmuş hiyləgər casusu necə tutduğundan danışır. Povestdə əsas qəhrəmanlardan olan Bəkil ümumiyyətlə, diribaş, tədbirli, ağıllı, yaxşı oxuyan, idmanı sevən, ayıq-sayıq bir oğlandır. Buna görə də sərhədçilər onu çox sevir.

Poema iki hissədən ibarətdir. Altıncı sinif şagirdi Əkilin şagirdlər arasında öz fərdi keyfiyyətləri ilə seçilməsi, nəhayət, yolda yaşlı bir kişi ilə rastlaşması, şübhələndiyi üçün aldadılıb sərhəd məntəqəsinə aparması təsvir olunur. Bəlli olur ki, özünü şikəst qələmə verən, Hitlere qarğışlar yağdıran bu kişi guya qatarla Naxçıvana qızıgilə qonaq getmək istəyir. Zastavaya çatan kimi leytenant kişinin əlindən çəliyi alır. Bəlli olur ki, çəlik səssiz tapança imiş. Əkilin bu igidliyi məktəbdə, kənddə və hərbi sərhəd məntəqəsində geniş yayılır.

Poemada şair Bəkili elə məhəbbətlə təsvir edir ki, istər-istəməz adamın yadına nağıllarımızdakı ağıllı Cırtdan, Keçəl və başqa qəhrəmanlar düşür.

**II iştirakçı:** Əziz oxucular, sual edə bilərsiniz ki, yazıçı "Əkil-Bəkil" poemasındaki Bəkil surətinin adını haradan qoyub. Q. İsabəyli Bəkil adını təsadüfi seçməyib. Bəkil qədim Oğuz ellərində sərhəd gözətçisi olub. Bildiyiniz kimi, nağıl dili yüyürək olur. Bəkil səhifədən-səhifəyə gözümüz önündə böyüyür, boya-başa çatır. Orta məktəbi uğurla bitirir. Hamı kimi o da əsgərliyə gedir. Onu bir sərhəd zastavasının komandiri respublika Hərbi komisarlığına məktub yazaraq öz hissələrində saxlamağı xahiş edir. Komisarlıqdan da razılıq verirlər. Bəkil isə həqiqi hərbi xidmətini çəkərkən hamıya nümunə olur. Hərbi xidmətdə göstərdiyi igidliyə və şücaətə görə "Qırmızı Ulduz" ordeni ilə də təltif olunur. Bu igidlik Bəkilə şagirdlər arasında böyük nüfuz qazandırır. Q.İsabəyli Əkil-Bəkili məktəbdən başlamış, böyüyüb yaşa dolanadək çox çətin imtahanlardan keçirir. Vətən həsrətilə ürəyi döyünən Bəkil bütün sınaqlardan alnıaçıq çıxır. Bəkilin əsgəri xidmətə çağırılması, sərhəddə, Vətən qarşısında borcunu ləyaqətlə yerinə yetirməsi, general Əliyevin şəxsən onunla görüşüb söhbət etməsi, xoş arzularla Bəkilin toy məclisində iştirak etməsi səmimiyyətlə qələmə alınmışdır. Bəkil yoldaşlarına hətta məzəli nağıl da danışır. Nağılda İdığla Bidığın sərgüzəştlərindən söhbət açılır. İdığla Bidığ ər-arvaddırlar. Onlar savaşa-savaşa, barışa-barışa bir-birlərinə gah can deyib, can eşidirlər, gah da yollarda dava-dalaş salırlar, yenə yollarına davam edirlər.

Getdilər, ha getdilər,
Təpələrdən yel kimi.
Getdilər ha getdilər,
Dərələrdən sel kimi.
Acı yovşanlıq keçib,
Şirin biyanlıq keçib
Getdilər ha getdilər,
Badeyi-sərsər kimi.

Yollarda çölləri, meşələri, düzləri, gölləri görən İdığ-bunlar kimindir?-deyə Bıdığa suallar verir. Bıdığ isə İdığa cavab verir ki, bu gördüklərin dünyanındı. Dünya isə yaşayanın. At kimindir? Minənin. Yolda İdığ haray salıb Bıdığa deyir ki:

-Bıy!..
Bax, su
Yer çatlayıb
Lap çıxıbdır özəyi!
Tez bir iynəmi sapla
Tikiş vurum görəyim.

İdığla Bıdığ məzəli məcaralardan keçib yəhəri də, atı da itirib küləkdən yapışdılar:

Ay külək götür bizi!
Dərədən ötür bizi!
Təpədən bitir bizi
Külək götürdü getdi

Yolda söyüdün üşüdüyünü görüb paltarını da soyunub söyüdə bükürlər. İdığla Bıdığ nə qədər gəzsələr də Vətəndən doymadılar. Amma onları "sərhədçilər Arazı keçməyə qoymadılar":

Qalxıb İlanlı dağa
Durub fikrə daldılar:
-O da bizim Vətəndi!
Bu da bizim Vətəndi!
Niyə yolları çəpdi?
Niyə parçalayıblar,
Niyə iki bədəndi?

**III iştirakçı:** Poemanın "Keşikdə" adlanan ikinci hissəsində Bəkil orduya çağrılır. Sərhəd qoşunları komandanlığı Bəkili orta məktəbdə oxuyarkən igidlik göstərib casus tutduğuna, sərhəd sirlərini möhkəm saxladığına və sərhəd bölgəsinə yaxşı bələd olduğuna görə "N" hissəsinin rəisinin xahişini nəzərə alıb onun

hazır bir sərhədçi kimi həmin sərhəd hərbi hissəsində qulluq etməsinə razılıq verir.

Bəkil sərhəd qulluğunda da tez ad-san qazanır. Hərbi təlim zamanı sərhədi keçən casusun boğazı Bəkilin kəndirinə keçir. Özündən qat-qat güclü olan cəsusu sərhəd məntəqəsinə gətirir. Bu hadisə Bəkilin komandirini çox sevindirir. Onun gətirdiyi "div" ovunu gündəlik hesablarına daxil edirlər. Çünki belə bir "div" ovu sərhədçilərə çox lazım idi. Sərhəd göstəricisi Bəkili Vətənin ikiyə parçalanması çox düşündürür:

Tikanlı məftilləri görcək
Qəlbim yanıbdır.
Pas tutmuş balta kimi
Sinəmə saplanıbdır.
Uzanır çay boyunca
Gah da layı bölür tən.
Bu iki parça olan
Sənin köksündür Vətən!
Günahsız torpaq yatır
Məftillərin altında.
Nə qədər sərhəd batıb
Bu yerin alt qatında!
Bizə bir ad veriblər
Ölüncə o ad bizim...
Bir adla da tanıyar
Yaxın bizi, yad bizi!
Niyə ikidir adın
Ay sənə qurban canım!..
İran Azərbaycanım!

Bu məqamda şair Qəşəm İsabəyli Vətənin ikiyə parçalanmasını ürək ağrısı ilə düşünür və qarşıya suallar qoyur:

Neyləyək, biz ilahi!
Canı cana yetirək?!

Şah İsmayıl Xətaini
Hardan tapıb gətirək?!

Gözətçi sərhədin bu tayında durub o taya tamaşa edir. Gah keçmişi göz önünə gətirir, gah da bu günü. Tarixin amansız qanunlarına nifrətini yağdırır. Günahı çox hallarda özümüzdə axtarır:

Dilimizə bənd vurub,
"Sus"-deyiblər susmuşuq!
Özümüz özümüzə
Gor olmuşuq, pusmuşuq!

**IV iştirakçı:** Müəllif bu poemanı müxtəlif fasilələrlə üç dəfə təzədən işləyib, əslində yazıb desək daha doğru olar. Yazıçı poemada öz qəhrəmanını Əkil-Bəkili müxtəlif həyat məcaralarına salır. Məktəbli Əkildən əsgər Bəkilə kimi bir zaman məsafəsi fəsil-fəsil xalqın tarixi mərhələlərinin fonunda tərənnüm olunur.

Əkil-Bəkil sadəcə
Əkil-Bəkil deyildi.
Söz idi, söhbət idi,
Ağızdı...gözdü...dildi.

**"**Əkil-Bəkil" poemasının məziyyəti haqqında Məmməd İsmayıl kitabın ön sözündə yazır: "Poema yazmaq, özü də bitkin, kamil bir poema yazmaq indi həqiqətən də çətin bir işdir. Yazı ilk sətirlərindəcə oxucunu ələ alır, onu Əkil-Bəkilin ömür yollarında düşdüyü müxtəlif məcaralarından keçirir".

Q.İsabəylinin qələmə aldığı bu kitab bədii tərtibatına görə də diqqəti cəlb edir. Kitabdakı zövqlə hazırlanmış şəkillərdən oxucu heç də ayrıla bilmir. İki hissədən ibarət olan bu kitab "Ən yaxşı uşaq kitabı" adlı Respublika müsabiqəsində ikinci mükafata layiq görülmüşdür. Bir sözlə, əziz iştirakçılar inanırıq ki, "Əkil-Bəkil" sizin stolüstü kitablarınızdan biri olacaqdır. Biz

isə öz növbəmizdə kitabın müəllifinə yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

Müasir uşaq poeziyası sahəsində son illər uğurla çalışan, Qarabağ mövzusu haqqında çox ibrətamiz mövzulara müraciət edən şair Qəşəm İsabəylinin Xocalı hekayələri silsiləsindən "Köçərilər" adlı heyakəni də siz oxucuların diqqətinə çatdırmağımızı özümüzə borc bilirik. Gəlin birlikdə "Köçərilər" heyakəsinə qulaq asaq.

**Kitabxanaçı:** Biz, Xocalıda yaşayırdıq. Hamı kimi işə gedir, məktəbə tələsir, toy edir, şadlıq-şadyanalıq qururduq. Bu yandan da toplar guruldayır, güllələr taqqıldayır, mərmilər şivən qoparırdı. Bir dəfə babam məndən soruşdu:

-Ay bala, inşəallah, böyüyəndə nə olacaqsan?

-Quş olmaq istəyirəm, ay baba.

-Quş?! Nə quş?!-Kişi mat-mat üzümə baxdı.

-Köçəri.

-Köçəri?

-Uçub dünyanı gəzərəm.

-Tutaq ki, dünyanı gəzdin, sonra nə olsun?

-Sonra da ürəyim istəyən yerdə yuva qoyub, yaşayaram.

-Ay kişi,-nənəm idi,-bax ey, qonaqlarımız gəlib.

Babam "hə-hü" eləyincə özümü atdım çölə; nənəm sağ əlini sol gözünün üstünə günlük eləyib, göyə baxırdı.

-Hanı, ay nənə!?

-Odur ey babanın qardaşının başında!

Babam dünyaya gələndə atası onun adına bir qovaq ağacı əkir. Babam da bu ağaca "qardaşım" deyirdi.

-Baho!..-Babam idi.-Ətcəbalalar böyüyüb ki, maşallah! Bəs atanız, bəs ananız? Cənnətməkan olsunlar! Qəm eləməyin, onlardan da yaxşı baxacam sizə! Çox sağ olun ki, ana yurda qayıtmısınız! Nahaq deməyiblər ki, quşa da öz vətəni!

-Nə yurd, nə vətən ay baba?

-Leyləklər insan deyil ki, onun-bunun yuvasına gedib girsin!

Cavan leyləklər günlərlə çör-çöp daşıyıb köhnə yuvanı sahmana saldılar. Sonra da ana leylək sinəsi üstə düşdü yuvaya; haçan yumurtladı, haçan üstündə yatdı?! Bir də gördük, ağacın başını civilti bürüyüb; ana leyləyin yan-yörəsində basdırıqdı; açıla qalmış sarı-sarı dimdiklər, balaca-balaca daz başlar səyriyir. Leyləklər çöldən, çəməndən dimdiyi dolu qayıdanda ətcəbalaların ağızları gedərdi qulaqlarının dibinə: ci...ci...ci... Hərəsinə də bir udum çata-çatmaya. Bir dəfə isə gözüm kəlləmə çıxdı; leyləklər ağacın başında heç nə olmamış kimi balalarını yemləyir, ağacın dibində isə bir çüt ətcəbala civ-civ civildəşirdi.

-Ay bala, ay bala! Bax ey...it-pişik yeyəcək...

-Leylək ağıllı quşdu, elə ki, görürlər, yem çatdıra bilməyəcəklər, balaları acından qırılacaq, onda bir-ikisini atırlar yuvadan ki, qalanını rahat böyütsünlər.

-Ay bala, yazıqdı axı bunlar!

-Biz demokratik ölkənin vətəndaşı sayılırıq, balası, leyləklərin daxili işlərinə qarışa bilmərik, yoxsa Birləşmiş Millətlər Təşkilatında dava düşər!

Müharibə gün-gündən şiddətlənirdi. Top-tüfəng səsindən evimiz titrəyir, pəncərə şüşələri cingildəyirdi. Bir günorta nahar elədiyimiz yerdə, nəsə “fıss”adan həyətə düşdü, sonra da şaqqıltı eşidildi, ətrafa gur işıq yayıldı. Eşiyə qaçdıq; babamın qardaşı – qoca qovaq şaqqalanıb, alışıb yanırdı. Leylək yuvası da həyətin bir küncündə papaq kimi ağzı üstə düşüb, yastılanıb qalmışdı. Ana leyləklə balaları hərəsi bir tərəfdə yerə yapışıb, dimdiyini açıb yumurdu. Bir azdan titrəyib, dartınıb, donub qaldılar.

-Qardaşımı mərmiylə vurdular. Deməli, indi də növbə mənimdi.-Babam beli götürüb, çəpərin ayağında bir çala qazdı; ağlaya-ağlaya leyləkləri basdırdı. Nənəm də ovunmaq bilmirdi.

-Bu yaxşı əlamət deyil, ay kişi! Başımıza bir çarə qılmalıyıq!

Qonşumuz Arakel baba tələsik həyətə girdi:

-Ay Həsən, indi nə fikirləşirsən?! Bu gün qardaşını vurublar, sabah da növbə sənindir!
-Deyirsən, torpağı qoyub, canımızı götürüb qaçaq, ay kirvə?! Hara gedək?1
-Dünyada o qədər  rahat yer var. Mən öz payıma Ermənistana gedən deyiləm. Rusiyaya qohunlarımın yanına nə gəlib?! Həsən, biz günümüzü görüb, dövranımızı sürmüşük, bu uşaq yazıqdı, yığışın gedin Bakıya.
-Öz torpağımdan köçüm, deyirsən, ay kirvə?!
-Müharibə nə bilir öz torpağındı, özgənin torpağıdı. O, bir dənə şey bilir, onun da adı-ölümdü!
-Kürdəmirin Qəhrəmanbəyli kəndindən Məlik Mahmud bəy adlı qonağımız olub. Sovet hökuməti gələndə deyirlər, a bəy, varlılar İrana çıxıb gedir, bolşeviklər səni sağ qoymayacaq, nə gözləyirsən?! Bəy deyir, torpaq kişinin arvadıdır, adam da namusunu atıb gedər?!
-Axırı necə oldu?
-Yazıq kişini əvvəl dama salıblar, sonra da gülləylə vurublar ki, bəs qaçırmış!
-Day nə istəyirsən?

İki gün sonra Arakel babagilin həyətinə yekə bir yük maşını gəldi. Nələri vardı yığdılar içinə. Sonra da Süsən nənə, Sergey əmi, Sara xala, Arakel baba, nəvəsi Hamo bizimlə xudahafizləşib, ağlaya-ağlaya maşına mindilər... Babamla nənəm də göz yaşları içindəydi. Zarafat deyil, əlli illik qonşularını itirirdilər. Mən də Hamonun getməyinə pis olmuşdum. Day kimlə oynayacaqdım?! Maşının dalıyca bir xeyli qaçdım:
-Məktub yazarsan, Hamo!
-Yazacam, amma kim gətirəcək, ay Elat?!
-Poçtalyon.
-Poçt...

Maşın taqqa-tuqla dərəyə enib, gözdən itdi. Ata leylək düz üç gün həyətin başına fırlandı. Tez-tez yanıb kösövə dönmüş qovaq ağacına düşür, döyükmüş gözləriylə ətrafına baxır, sonra yenidən güc verirdi qanadlarına. Top-tüfəng səsindən qurd-quş dəstə-dəstə köçüb gedirdi. Allahın sərçə-sığırçını da çıxmışdı kənddən. Leylək isə tək-tənha qalmışdı. Nənəm gündə azı yüz dəfə əlinin dalıyla gözlərini silirdi:
-Yazıq quş!
-Ay nənə, niyə uçub getmir bu?!
-Hardan gəlmişdi, ora.
-Kimi vardısa, hamısı da burdaydı, onları da biz öldürdük!
-Biz niyə?1
-İnsan deyilik?!
-Təzədən evlənsin də?!
-İnsandı bəyəm?!

Kəndimizin üstündən təyyarələr uçub gedir, top-tüfəng səslərini gündən-günə bir az da yaxından eşidirdik. Bir səhər nənəm təndir qalayıb, çörək bişirməyə hazırlaşırdı. Leylək də hardansa uçub gəldi. Alov təndirin ağzından gur qalxıb başladı dalğalanmağa. Nənəm evə getdi ki, xəmir teştini gətirsin. Leylək alova baxıb, qorxmuş kimi dik qalxdı. Qalxdı-qalxdı, düz təndirin tüstüsünün yuxarı həddinə qədər. Sonra da bir hovur dayanıb, qanadlarını büküb, təpəsi üstə özünü buraxdı aşağı; alovu yarıb, təndirin içinə düşdü. –Ay nənə-ə-ə-ə... Səsimin həyəcanını duyan nənəm özünü çölə atdı:
- Biy, başıma xeyir, sənə nə olub, ay bala, ağ-appaq ağarmısan?!
- Ay nənə, ləylək özünü təndirə atdı.
- Bıy, başına daş düşən canım!

Nənəm vedrəni götürüb hovuzun başına qaçdı. Üç-dörd dəfədən sonra təndiri söndürdü. Dırmıqla yanmış leyləyi çıxarıb otun üstünə qoydu. Quş ağzını bircə dəfə açıb-yumdu. Babam da gəlib çıxdı. Bir xeyli ölü leyləyə baxdı:

-Halal olsun!
-"Halal olsun"?! Özünü öldürməyə?!
-Sədaqətinə?!

Müharibə əjdaha kimi cəhəngini ayırmışdı; az qala gündə onlarla insanı kamına çəkirdi. Leyləyin faciəsi də yavaş-yavaş süfrələrimizin başından yığışırdı. Artıq qışla üz-üzəydik; çöldən çox, evdə olurduq. Bir axşam da şam eləyib, AzTv-də xəbərləri dinləyib, yerimizə girdik. Səhərə yaxın dolu səsinə gözlərimi açdım.-Ay baba, nə yaman yağır!

-Dur, geyin, ay bala, düşmən başımızın üstünü alıb. Evimizi güllələyirlər.

Nənəm ora-bura vurnuxurdu.

-A kişi, Arakel kirvə köçəndə köçsəydik, bu günə qalmazdıq.

-Mən həyətə düşürəm, gözünüz əlimdə olsun. Babam özünü eşiyə saldı. Heç beş addım getməmişdi ki, diksindi; əllərini qabağa uzadıb, iki addım ata-atmaya, sinəsi qovağa söykəndi. Əlinin işarəsiylə "gəlməyin!" dedi. Sonra sürüşüb, yanı üstə düşdü; üzü dirəndi ağacın gövdəsinə. Nənəm içini çəkdi:

-Oy! Ürəyim parçalandı!

Maşın səsinə başımı qaldıranda Xankəndi sarıdan ağ bir "Niva"nın qapımıza tərəf gəldiyini gördüm. Nənəm qolumdan çəkdi: dal qapıdan bağçaya düşdük. Bəs babam!?

-Ay bala...-həyət qapısı tərəfdən eşidilən avtomatın aramsız taqqıltısı nənəmin sözünü ağzında qoydu.

Bütün gecəni nənə-bala yol getdik. Əl-ayağımız, pal-paltarımız cırıq-cırıq olmuşdu. Səhərə yaxın sağdan-soldan dəstə-dəstə adamlar da gəlib bizə qoşulurdu.

-Allah bunların evini yıxsın! Xocalını da viran qoydular!

Dağlıq Qarabağla Aran Qarabağın sərhəddində yerləşən Ağdam şəhərinə güclə özümüzü çatdırırıq. Bizi məktəbə gətirdilər:

-Üstünə “Beşinci sinif” yazılan otaq sizindi. Bu gecə birtəhər keçinin, sabah Bakıdan yorğan-döşək göndərəcəklər.
Çox keçmədi Ağdam da işğal olundu. Biz də Bakıya çıxıb getdik. Bakının gecəqondularından birində balaca bir dam-daş qaldırıb, içinə köçdük.

Hər gecə başımı yastığa qoyan kimi qovaq ağacı yuxuma gəlir, yuvası dağılıb, balalarıyla birgə həlak olmuş ana leylək yuxuma gəlir, özünü təndirin alovuna çırpıb, diri-diri alışıb yanan ata leylək yuxuma gəlir. Babamın ağac gövdəsinə dirənən sifəti...bir də gözü yaşlı erməni qonşularımız:
-Ay Həsən, gəl köç bu xarabadan.
-Hara köçüm, ay kirvə? Torpaq kişinin arvadıdı. Kişi də namusunu atıb gedər?!

*Hekayənin sonunda kitabxanaçı uşaqlara mövzu ilə bağlı bir çox suallarla müraciət edir.*

Yubileylə bağlı kitabxanada keçirilən tədbirlərdən biri də səhərcikdir. Səhərciyi keçirmək üçün kitabxanaçı kiçik yaşlı uşaqları nağıl otağına toplayır. Nağıl otağına toplanan azyaşlı uşaqlar əvvəlcə şair Qəşəm İsabəylinin “Elnur, Əkil və onların başına gələnlər” adlı kitabındakı “Çörək niyə dadlıdır?” nağılını dinləyirlər, sonra nağıl əsasında hazırlanılmış səhnəciyə tamaşa edirlər. Uşaqlar, əvvəlcədən qeyd etmək istərdik ki, bu nağıl maraqlı, ibrətamiz, məzəli və əxlaqi keyfiyyətlərlə zəngin uşaq ədəbiyyatı nümunəsidir. Şirin bir nağıl dili ilə qələmə alınmış bu əsər sizin kimi kiçik yaşlı balalar və məktəbli uşaqlar üçün sinifdənxaric oxu kimi nəzərdə tutulmuşdur.

**Çörək niyə dadlıdır?**

Elnur: Bu nədi baba?
Baba: Çörəkdi, oğlum.
Elnur: Çörək nədən olur, baba?

Baba: Buğdadan. Kasıb süfrəsinin çörəyi isə darıdan olur, hansı ki, quş yemidi, arpadan olur, hansı ki malqaraya verirlər, buna da ölməz çörəyi deyirlər.
Elnur: "Ölməz çörəyi" nədi?
Baba: Kasıbın süfrəsinin xörəyi də çörəkdi, çörəyi də. Çörək onu ölümdən qoruyur.
Elnur: Uyy, baba, nə dadlıdı! Heç buğda belə şirin deyil.
Baba: Sən buğdanı dən-dən udmusan, dadını duymamısan. Biz isə buğdanı un edib, bişirmişik axı!
Elnur: Bəs bu nədi?
Baba: Pendirdi. Onu da südü bişirməklə hasil etmişik.
Elnur: Bəs bu?
Baba: Çaydı.
Elnur: Suyu bişirmisiniz hə?
Baba: Ha...ha...Düzünə qalsa, sən deyəndi, ay Əkil!
Elnur: Baba, siz hər şeyi bişirməklə dadlı edirsiniz, hə?!?
Baba: Elədi, ay ağıllı bala! Elə adamı da bişirəsən ki, gərək dada gəlsin!
Elnur: Dada gəlsin? Adamın da dadı olur, ay kişi!?
Baba: Hər adam adam olmadığı kimi, hər adamın da dadı olmur. Adamın dadı adam olmağındadı, balalarım!.. Adam iş-gücdə bişməklə adam olur, balalarım!
Kitabxanaçı: Uşaqlar, gəlin sizinlə bir qədər bu gözəl nağılları, şeirləri, tapmacaları qələmə alan şair haqqında bir qədər sual-cavab edək, görək siz Qəşəm İsabəylini necə tanıyırsınız? Əvvəlcə sizdən soruşmaq istərdim ki, nağıl xoşunuza gəldi?

☺Bəli.

**Suallar:**

1. Uşaqlar Qəşəm İsabəyli kimdir?
   Qəşəm İsabəyli uşaqların yaxın dostu, sirdaşıdır.
2. Qəşəm İsabəyli nə vaxt və harada anadan olmuşdur?

Qəşəm İsabəyli 14 avqust 1948-ci ildə Kürdəmirin Xəlsə kəndində anadan olmuşdur.

3. Qəşəm İsabəylinin ilk kitabının adı nədir və neçənci ildə nəşr olunmuşdur?
   Qəşəm İsabəylinin ilk kitabı "Balaca, bap-balaca" kitabı, 1982-ci ildə nəşr olunmuşdur.
4. Uşaqlar, Qəşəm İsabəylinin hansı nağıllarını tanıyırsınız?
   Qəşəm İsabəylinin "Samur at minir", "Şah və qarışqa", "Cin", "Sehirli tütək", "Şam nağılı", "Nağıl-nağıl məkanı"və s. kitablarını tanıyırıq.

Qəşəm İsabəylinin yaradıcılığı ilə uşaqları yaxından tanış etmək üçün kitabxanda, həmçinin bir çox *söhbətlər də* aparmaq olar. Məsələn, söhbətə aşağıdakı kimi başlamaq olar:
Kitabxanaçı: Bildiyiniz kimi, Q.İsabəylinin yaradıcılığının böyük bir hissəsi respublikamızın müstəqilliyi dövrünə təsadüf edir. Yaratdığı "Şirvannəşr" nəşriyyatı və "Cik-Cik"qəzeti də bu dövrdə meydana gəlmişdir. Q.İsabəyli yaratdığı "Cik-Cik" qəzetinə abunəçi yığmaq üçün "Bu boyda yalan olmaz" adlı məqaləsində yazırdı: "Cik-Cik" də işıq üzü gördü. Kimə dedim, oxumusanmı? Soruşdu "Neçəyədi?" Dedim: "Bir dəstə keşnişə". Dedi: "O qəzeti oxuyarlar ki, orada qeybət var, kiməsə sataşmaq var. Əslində "Cik-Cik"in taleyi Q.İsabəyli üçün uşaq ədəbiyyatının taleyi idi. Buna görə də məqsədinə çatmaq üçün jurnalistikanın hər cür priyomlarından istifadə edirdi. Gah xatirə danışır, gah da ədəbiyyatımızın nümunələrindən misallar gətirərək insanları səfərbərliyə çağırırdı.

Oxucu toplamaq, onları qəzetin ətrafında birləşdirmək üçün müasirləri olan uşaq mətbuat orqanlarını da bu işə səfərbər etməyi məqsədəuyğun sayırdı. Q.İsabəyli: "Lap yadımdan çıxmışdı. Bu "Cik-Cik" ki var, dünyaya gələndən gözü qalıb qapıda. Deyirəm: "Nə olub, ay "Cik-Cik"! Bəs deyir ki, balam,

mənim bu “Savalan” qardaşım, bu “Göyərçin” bacım, bu “Günəş” babam nə əcəb mənə gözaydınlığı vermirlər?! Deyirəm: “Ay sağ olmuş, bəlkə xəbərləri yoxdu?” Qayıdıb nə desə yaxşıdı:

“Quzunu alan olmaz,
Ağıla salan olmaz!
Deyirlər, yarım gəlir,
Bu boyda yalan olmaz?!”

Q.İsabəyli yaradıcılığa başlaması haqqında belə yazır: “İndiki kimi yadımdadır, təzə-təzə dördüncü sinifə gedirdim. Bir axşam şam yeməyindən sonra evdə hərə bir işlə başını qatmışdı ki, yuxu gəlincə darıxmasın. Mən də pəncərənin qarşısındakı stola sinəmi dayayıb, başımı əyib, yazırdım. Birdən elə bil məni vurub ayıltdılar. Baxdım ki, yazdığım sətirlərin hamısı altbaalt düzülüb, özü də boyca bir-birindən fərqlənmir. Demə bacım da mənə göz qoyurmuş. O dəqiqə dəftəri qapıb, evdəkilərə göstərdi:
-Baxın ey, Qəşəm şeir yazıb!

Söz ildırım sürəti ilə sabahı məktəbə də gedib çıxdı. Tərs kimi birinci dərsimiz də riyaziyyatdan idi. Bibər kimi acı bir müəllimimiz vardı. Kəndin uşaqlarının qorxduğu bir varlıq vardısa o da həmin riyaziyyat müəllimi idi. Bəli, riyaziyyat müəllimi sinfə girən kimi, hansısa dili qurtlamış məni “satdı”.
-Müəllim, Qəşəm şeir yazıb.
Müəllim jurnalı stolun üstünə atıb, çəp-çəp mənə baxdı. Tez sıçrayıb ayağa durdum.
-De gəlsin!

Qıpqırmızı olmuşdum. Gözümü yerə dikib qorxuqarışıq utancaqlıqla gülümsünürdüm.
-Demədim, de gəlsin?

Başımın üstünü alan qara-qorxunu bir-təhər sovuşdura bildim. Şeirin adı “Moskva ulduzu” idi. Bu minvalla yüzlərlə

dəftərin sinəsini söküb, minlərlə qələm başı yedim...” Bəli, Q.İsabəyli etiraf edir: “Əvvəllər az oxuyub, çox yazardım. Sonralar dərk etdim ki, ürək quyu deyil, beli ha dərinə vursan da, faydası olmayacaq. Yaxşı yazmaq üçün çox oxumaq lazımdır. İndi çox oxuyub, az yazıram...”

Kiçik yaşlı uşaqlar Q.İsabəylinin “Balaca, bap-balaca” adlı şeirini söyləyirlər.

Balaca bir toxumdum;
Balaca, bap-balaca.
Nəm torpağa toxundum;
Balaca, bap-balaca.
Gün çıxdı, yer isindi;
Balaca, bap-balaca.
Bir az da yerə sindim;
Balaca, bap-balaca.
Yerdən, Günəşdən yedim;
Balaca, bap-balaca...

Yubiley münasibətilə təşkil olunan tədbirlərdən biri də orta və böyük yaş qrup oxucular arasında keçiriləcək ***ədəbi-bədii gecədir.*** Ədəbi-bədii gecəyə kitabxanaçı bir ay qabaqcadan hazırlaşmalıdır. Bu tədbirin keçirilməsində əsas məqsəd oxucuları şairin həyat və yaradıcılığı ilə yaxından tanış etmək, onun şeirlərini, nağıl və povestlərini təbliğ etməkdir. Tədbirə şairin qələm yoldaşları, ədəbiyyat müəllimləri, məktəblilər dəvət olunmalıdır. Həmçinin tədbirə şairin özünü də dəvət etmək olar. Tədbir iki hissədən ibarət olmalıdır. Birinci hissədə şairin həyat və yaradıcılığı haqqında çıxışlar olmalı, qonaqlara söz verilməlidir. İkinci hissədə Qəşəm İsabəylinin uşaqlar haqqında yazdığı şeirlər səslənməli, nağıl və povestlərdən səhnəciklər göstərilməlidir. Aşağıda **“Azərbaycanın görkəmli uşaq**

**yazıçısı Qəşəm İsabəyli"** adlı tədbirin ssenarisini nümunə üçün veririk:

*Qəşəm İsabəylinin şeirlərindən bir parça səhnənin divarından asılır.*

*Yazılıb alnımıza taleyimiz –yaddaş olub,*
*Sənin eşqində, İlahi, gözümüzdə yaş olub,*
*Həcərüləsvədi öpmək bizə məqsəd; baş olub,*
*Allah, Məhəmməd ya Əli!*

**I aparıcı:** Q.İsabəylinin yaradıcılığında həyata real baxış, mənəvi-əxlaqi tərbiyə, humanist duyğular, insanpərvərlik başlıca yer tutur. Bədii sözün ifadə tərzinə və sanbalına hər zaman həssaslıqla yanaşan Q.İsabəylinin irili-xırdalı bütün əsərlərinin dəyəri də məhz bundadır. O, uzun zaman yaradıcı imkanlarını əsasən uşaq ədəbiyyatının inkişafına həsr etmişdir. Uşaq aləminə dərindən bələd olan, o aləmin ab-havasına çox ustalıqla daxil olan yazıçı Qəşəm İsabəylinin uşaq şeirləri oxucunu mütaliəyə həvəsləndirir. Hətta uşaqlara kitab oxumaq vərdişini, səbrini, təmkinini aşılayır. "Həmişə aldıqların nübar kitablar olsun", misraları balaca dostlarının kitaba marağını, yaxşı əsərlər oxumağa istəyini yaratmırmı? Yazıçı nəsihətamiz fikirlərini asanlıqla, ləziz bir təam kimi onlara "yedizdirir". "Ağzına şirin gələn dadlı sözlər tapmışam", deyib, böyüklü-kiçikli oxucularını başına yığaraq onlara nə qədər həyat hekayələri danışır. Ordakı əhvalatların sadə, eyni zamanda yüksək bədii zövqlə təsviri bu əsərlərin yaddaşda birdəfəlik qavranılmasına təsir edir. Onun bir sətrini, bir cümləsini gözün almağı yetər ki, kitabı əldən qoymadan su kimi içib başa çatdırasan.

*Oxucular səhnəyə daxil olur. Qəşəm İsabəylinin "Külək" adlı şeirini söyləyirlər.*

-Ay külək, nə əsirsən?
-Əsməsəm, olmaram mən.
-Xeyri var ki, varam mən!
-Qışda nə xeyrin var, hə?
-Qışda yağış, qaram mən.
-Yazda bəs?
-Ağacları
Oyadan nübaram mən.
-Yayda nəsən, ay dəli?
-Yaydamı?..Baharam mən.
-Payızda nə?
-Payızda
Aşıb-daşan varam mən;
Bağça dolu xəzələm,
Budaq dolu baram mən!

Bilirik ki, Q.İsabəyli hər deyəndə, yazmaq xatirinə masa arxasına keçən deyil. İçindən bişib, dəm almayınca qələmə sarılmaz. Elə neçə illər öncə özü də balaca dostlarına demişdi:

Haçandı sarınırdım
Qəlbimə yumaq kimi.
Pıqqa-pıq qaynayırdım
Bişirdim quymaq kimi.

Doğrudan da bu əsərləri təkrar-təkrar oxuduqca görürük ki, müəllif poeziyanın və nəsrin imkan verdiyi bütün sahələrdə mövzunu, onun süjetini, təsvir edəcəyi hadisə və əhvalatları, hətta bədii detalları, nənələrin boxçasından arayıb seçdiyi çəmən ətirli sözlərini fikrində yaraşdırıb-dolğunlaşdırmamış, ürəyini boşaldan deyil.

*Oxucular səhnəyə daxil olur, "Nənəm gəlib" şeirini söyləyirlər.*

A çil xoruz, bəsdi day,
Bəsdi saldın hay-haray.
Sən də bil, ey gəlsənə,
Nənəm gəlib Xəlsədən.
Anam yer salıb, yatır,
Yaman yorulub arvad.
Məni də çağırdı:-Gəl,
Oğlum, gəl, qucumda yat!
Nənəm  yatır yataqda,
Oturmuşam mən ancaq.
Öpürəm üz-gözündən,
Görən haçan duracaq?!

Qəşəm İsabəylinin uşaqlar və gənclər üçün yaratdığı əsərlər hələ bir neçə nəslin ədəbi tərbiyəsi ilə məşğul olacaq, onların milli-mənəvi dəyərlər əsasında formalaşmasında layiqli rolunu oynayacaqdır.

*Oxucular səhnəyə daxil olur Qəşəm İsabəylinin "Anam deyir..." adlı şeirini söyləyirlər.*

**I oxucu:**

Anam deyir "ye",
Atam deyir"ye".
Niyə yemirsən,
Ay bala, bir de?!

***

Sən dilini vur
Bir bunacığa...
Mən də yemirəm
Düşüb acığa.

Guya yeməsəm,
Yeməyəcəklər.
Yesəm, bir də "ye"
Deməyəcəklər?!

***

**II oxucu:** Bu buyruq nədi,
Doğrusu bezdim.
Utanmıram ki,
Öz evimizdi.

***

Nə istəsəm var
Süfrədə ancaq
Qoymurlar adam
Yesin doyunca...

**II aparıcı:** Qəşəm İsabəyli Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndələrindən biridir. O, balacalar üçün həm gözəl şeirlər, həm də maraqlı nəsr əsərləri yaratmışdır. Yazıçının böyüklər üçün yazdığı hekayələr də olduqca qiymətlidir. Onun böyüklər üçün yazdığı nəsr əsərləri ədəbiyyatımıza layiqli töhvədir.

Yazılarının birində Qəşəm İsabəyli özü haqqında belə etiraf edir: "Hələ ki mən çoxluq üçün uşaq yazıçısıyam. Hələ ki mənim sözü ciddiliyindən çıxartmaq bacarığımdan xəbərsizlər var. Mən özüm də indi-indi dərk eləmişəm ki, gərək yazdığın elə olsun ki, çap etdirəndə böyük alınsın. Axı indi kimin kitabı nə boydadırsa, özü də o boyda yazıçı sayılır".

İstedadlı şair və nasir Qəşəm İsabəylinin yeni nəslin formalaşmasında əvəzsiz rolu olmuşdur. Qəşəm İsabəyli "Şirvannəşr"in təsisçisi olduğu vaxtlardan cəmiyyətdə, ədəbi mühitdə daha işıqlı görünməyə başlamışdı. Qəşəm İsabəyli sənətə, ədəbiyyatımıza və mədəniyyətimizə açıq-aydın,

təəssübkeş bir baxışla diqqətini artırmış, onun bu sahədə işgüzarlığı, bacarığı ağır zəhmətə qatlaşan əkin-biçin adamını xatırlatmışdı. Qollarını çirmələyib nəşriyyatı qurub-tikəndə, iş mühitini, yaradıcılıq mətbəxini sahmanlayanda, bir sözlə, iş-gücün əlindən macal tapmayanda elə sözün həqiqi mənasında əkinçi oğlu əkinçi olmuşdu. Hələ "İşıq"da, "Şur"da işlədiyi vaxtlarda kitab nəşri sahəsində qazandığı təcrübəsini, texniki işlərdən tutmuş yaradıcılıq imkanlarına, xalqın dilinin, tarixinin, mədəniyyətinin inkişafına xidmət edən əsərlərin üzə çıxarılmasınadək gördüyü işlərdə bütün istəyini, bacarığını burda daha da təkmilləşdirmişdi. Doğrudur, bu gün respublikamızda çoxlu sayda yeni tipli nəşriyyat-mətbəə fəaliyyət göstərsə də, qətiyyətlə demək olar ki, bu çoxluğun içində "Şirvannəşr"in boyu, çəkisi və sanbalı aydın görünür.

*Oxucular Qəşəm İsabəylinin "Salam" şeirini söyləyirlər.*

Bir söz də bəxşiş olsun,
Sən də qat öz varına;
Qəşəm İsabəylidən
Balaca dostlarına...

Hə qoçağım durma, ha
Ay əllərin var olsun!
Həmişə aldıqların
Nübar kitablar olsun!

İnanmağım gəlməyir,
Düzü gözümə vallah!
Bu sənmisən, əlində
Kitabımdır...Maşallah!?

Maşallah kamalına,
A hünərli, a səyli!
Bu kitab, bu da ki, sən,
Bu da mən – İSABƏYLİ.

## Ədəbiyyat siyahısı

***Əsərləri***


"Aclıq" dərsi = The lesson of hunger. - Bakı : Şirvannəşr, 2014. - 8 s. - Azərbaycan və ingilis dillərində.

Avropa dəbi...Dar şalvarlar və qızlarımızın monqol ayaqları. - Bakı : Şirvannəşr, 2007. – 44 s.

Ay külək, nə əsirsən : Şeirlər. - Bakı : Şirvannəşr, 2004. - 52 s.

Bir qarıyla bir qoca dingilim-fis oynar gecə : Hekayələr. - Bakı : Şirvannəşr, 2006. - 40 s.

Bir qəlbin məhəbbət etirafları : Hekayət. - Bakı : Şirvannəşr, 2006. - 52 s.

Boz cücələrlə məşhur oğrubaşı qara pişiyin ölüm-dirim savaşı : Nağıl. - Bakı : Şirvannəşr, 2015. - 32 s. : rəngli il.

Cin : Nağıl-povest. - Bakı : Şirvannəşr, 2013. - 64 s.

Çörək haqqında nəğmələr. - Bakı : Şirvannəşr, 2004. - 16 s.

Elnur, Əkil və onların başına gələnlər : Nağıl. - Bakı : Şirvannəşr, 2011. - 76 s. : il.

Əlifba-krossvord : şeirlər. - Bakı : Şirvannəşr, 1999. - 16 s. - (Latına doğru).

Əlli yaşında : toplu. - Bakı : Şirvannəşr, 1998. - 31 s.

Göydən üç alma düşdü : nağıl. - Bakı : Şirvannəşr, 1999. - 16 s. : şək.

İii...aaa... : Nağıl. - Bakı : Şirvannəşr, 2014. - 56 s. : il.

Leyləyin intiqamı : şeirlər, hekayələr, nağıllar. - Bakı : Şirvannəşr, 2015. - 128 s.

Nağıl-nağıl məkanı : nağıl. - Bakı : Şirvannəşr, 2000. - 16 s.- (Latına doğru).

Nənəm təkdi : şeirlər. - Bakı : Şirvannəşr, 2008. - 84 s.

Ölü bilər, mən bilərəm. : satirik hekayələr. - Bakı : Şirvannəşr, 2008. - 232 s. : rəngli foto.

Şamaxı-Şam nağılı : Poema. - Bakı : Şərq-Qərb, 1996. - 16 s.

Samur at minir : Yumor. - Bakı : Şirvannəşr, 2006. - 40 s.

Üüü... : Nağıl. - Bakı : Şirvannəşr, 2000. - 64 s

Vətən ; Bu iki parka olan ; Çörək və b. şeirlər // Azərbaycan uşaq ədəbiyyatı antologiyası. Bakı : elm və təhsil, 2014. -S.71-83.

***Tərtib etdiyi kitablar***

Azərbaycan uşaq ədəbiyyatı antologiyası : Şeirlər, nağıllar, hekayələr, pyeslər, ədəbi tənqid. - Bakı : Elm və Təhsil, 2014. - 514 s. : foto.

Azərbaycan uşaq ədəbiyyatı antologiyası. II cild : Klassik və müasir uşaq poeziyası. - Bakı : Renessans, 2016. - 422 s.

***Dövri mətbuatda***

Aauuu ; Ayı və ovçular ; Şəm-Şəmlə Nökərin əhvalatı : hekayələr // Ədəbiyyat qəzeti. - 2017. - 30 dekabr. - № 52. - S. 11.

Aclıq dərsi : Xocalı hekayələri silsiləsindən // Kaspi. - 2014. - 15- 17 fevral. - № 27. - S. 20.

Ağac : hekayə // Göyərçin. - 2017. - № 5/6. - S. 7.

Alma : hekayə // İşıq. - 2017. - № 1. - S. 59-61.

Alma ; Dəniz və tufan ; Qoca və balaca : nağıllar // Ədəbiyyat qəzeti. - 2017. - 4 mart. - № 8. - S. 11.

Dəniz və tufan : hekayə // Göyərçin. - 2018. - № 4. - S. 6-7.

Qərib uşaqla qərib itin əhvalatı : uşaq hekayəsi // Ədəbiyyat qəzeti. - 2017. - 27 may. - № 19. - S. 22.

Qoca və balaca : hekayə // Göyərçin. - 2017. - № 9. - S. 4-5.

Meh və külək : hekayə // Göyərçin. - 2017. - № 5/6. - S. 6.

Şəhid Bulud ; Görünməz və Alabəzək Kos : nağıllar // Ədəbiyyat qəzeti. - 2017. - 11 fevral. - № 5. - S. 23.

3-ə bölünməyən 40 ; Beş hərfin faciəsi : hekayələr // Ədəbiyyat qəzeti. - 2018. - 17 mart. - № 10. - S. 7.

Vətən ; Qoyun, dəvə ; Nəzakət və b. şeirlər // Azərbaycan : jurnal. - 2016. - № 12. - S. 173-174.

Vətən; Ay qış; Yumurta və b. : şeirlər // Tumurcuq. - 2013. - № 5. - S. 8.

***Məqalələri***

İlyas Tapdıq - ədəbi imzalar bolluğunda ədəbi sima // Yada düşdü. - 2017. - № Yanvar-fevral-mart. - S. 70-74.

Zahid Xəlilin "Ağ leyləklər"i // Ədəbiyyat qəzeti. - 2017. - 8 aprel. - № 12. - S. 21.

***Haqqında***

**Nasir Ş.** Azərbaycanın uşaq yazıçısı qızıl medalın bir addımlığında : Azərbaycanın uşaq yazıçısı Qəşəm İsabəyli // Azərbaycan Müəllimi. - 2014. - 17 oktyabr. - № 40. - S. 8.

**Nasir Ş.** H. X. Andersen qızıl medalının bir addımlığında : Azərbaycan uşaq yazıçısı Qəşəm İsabəylinin yaradıcılıq uğuru // Kaspi. - 2014. - 11 oktyabr. - № 166. - S. 16.

**Nasir Ş.** Azərbaycan uşaq yazıçısının uğurları : Qəşəm İsabəyli // Savalan. - 2014. - 17-20 oktyabr. - № 78. - S. 3. "Qızıl Kəlmə" ədəbi mükafatı təqdim edilib // Naşir. - 2015. - **№ 2**. - S. 10.

# “Əkil-Bəkil”in nağıllı dünyası

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 42
Çapa imzalanmışdır: 01.06.2018
Tirajı:100
Pulsuz